# Magistraturaya qəbul imtahanında xarici dil üzrə namizədlərin yazdıqları esselərin qiymətləndirilmə meyarları

<table>
<tr><th colspan="3">1</th><th colspan="3">2</th><th colspan="3">3</th><th colspan="3">4</th><th>5</th></tr>
<tr><td colspan="3">Essenin mövzusu, həcmi və strukturu</td><td colspan="3">Mövzunun əhatə edilməsi</td><td colspan="3">Məntiqi ardıcıllıq və qrammatik qaydalara əməl olunma</td><td colspan="3">Söz ehtiyatının müxtəlifliyi və işlədilməsi</td><td rowspan="3">Yekun bal</td></tr>
<tr><td colspan="3">1 (A)</td><td colspan="3">2 (B)</td><td colspan="3">3 (C)</td><td colspan="3">4 (D)</td></tr>
<tr><td colspan="3">Essenin mövzuya uyğunluğu, həcmi, tərkib hissələrinin (giriş, əsas hissə və nəticə (yekun)) mövcudluğu və onlar arasında əlaqə (bütövlük, tamlıq), üslubun orijinallığı (müəllifin dəsti-xətti)</td><td colspan="3">Mövzunun əhatə səviyyəsi, fikirlərin məntiqli və inandırıcı şərhi və ya təkzibi, şəxsi təcrübədən istifadə etməklə əsaslandırılması, neytrallığın gözlənilməsi</td><td colspan="3">Müxtəlif birləşdirici vasitələrdən istifadə etməklə məntiqi rabitənin gözlənilməsi, fərqli strukturlu cümlələrdən istifadə, yol verilmiş səhvlərin (qrammatik, orfoqrafik, durğu işarələri) sayı</td><td colspan="3">Söz ehtiyatının zənginliyi, müxtəlif leksik vahidlərdən istifadə, yol verilmiş leksik səhvlərin sayı</td></tr>
<tr><td>1 bal</td><td>0.5 bal</td><td>0 bal</td><td>2 bal</td><td>1 bal</td><td>0 bal</td><td>1 bal</td><td>0.5 bal</td><td>0 bal</td><td>1 bal</td><td>0.5 bal</td><td>0 bal</td><td>maksimal: 5 bal</td></tr>
</table>

**Qeyd 1:** a) Yerinə yetirilməmiş, yazı müəllifini tanıtmaq məqsədilə namizədin özü və ya yaxınları, müəllimləri və s. barəsində məlumat yazılmış və ya təqdim olunan mövzulardan biri əvəzinə, hər hansı digər mövzuda və ya seçilmiş xarici dil əvəzinə digər dildə yazılmış, həmçinin oxunulması mümkün olmayan yazı işləri "0" balla qiymətləndirilir.

b) Hər hansı işarə vurulmuş, sadə qələmlə (karandaş) yazılmış və üstündən diyircəkli qələmlə yazılmış işlər qiymətləndirilir, ancaq sistemdə xüsusi hissədə işarələnir.

**Qeyd 2**: A və B alt meyarları üzrə tam bal almaq üçün bütün şərtlər (söz sayı xaric) ödənilərsə, yazının həcmi (200 sözdən çox olması) nəzərə alınmır.

**Qeyd 3:** A bəndi "0" balla qiymətləndirilirsə, B bəndi üzrə qiymətləndirilmə aparılmır və yekun qiymət kimi "0" bal yazılır.
B bəndi "0" balla qiymətləndirilirsə, C, D bəndləri üzrə qiymətləndirmə aparılmır.

**Qeyd 4:** Hər alt meyar üzrə bütün şərtlər ödənilərsə, esseyə həmin bənd üzrə maksimum bal verilir.
Hər alt meyar üzrə şərtlərin çoxu və ya əsas hissəsi ödənilirsə müvafiq bal yazılır.

**Qeyd 5:** Eyni dil qaydalarına aid təkrarlanan səhvələr 1 (bir) səhv hesab olunur. Səhvlərin sayı sistemdə müvafiq xanada qeyd olunur.

| | |
|---|---|
| **A – Essenin mövzusu, həcmi və strukturu** | |
| **1 bal** | - esse seçilmiş xarici dildə və mövzunun adına uyğun işlənib;<br>- həcmi 150-200 sözdür (**Bax: Qeyd 2**);<br>- tərkib hissələri (giriş, əsas hissə və nəticə) ayrı-ayrı abzaslarla fərqləndirilib;<br>- essenin tərkib hissələri arasındakı əlaqə tamamilə gözlənilib: mətn axıcıdır;<br>- essedə orijinallıq gözlənilib. |
| **0.5 bal** | - esse seçilmiş xarici dildədir və mövzunun adına əsasən uyğundur;<br>- həcmi 150 sözdən az (minimum 130 söz) və ya 200 sözdən çoxdur;<br>- tərkib hissələrindən ən azı əsas hissə olmaqla ikisi ayrı-ayrı abzaslarla yazılıb və ya tərkib hissələrindən biri yazılıb və ya tərkib hissələri ayrı-ayrı abzaslara bölünməyib;<br>- essenin tərkib hissələri arasındakı əlaqə qismən gözlənilib;<br>- essedə orijinallıq qismən pozulub. |
| **0 bal** | - esse seçilmiş xarici dildə yazılsa da, anlaşılan deyil və (və ya) ifadə olunan fikirlər mövzunun adına uyğun deyil;<br>- həcmi 130 sözdən azdır;<br>- essedə struktur gözlənilməyib;<br>- esse tamamilə şablon/əzbər cümlələrdən ibarətdir (*essenin tamamilə plagiat olduğunu sübut etmək mümkün olduğu halda)<br>-Bax: **Qeyd 1 və Qeyd 3** |
| **B – Mövzunun əhatə edilməsi** | |
| **2 bal** | - mövzu dolğun şəkildə şərh edilib və tam (hərtərəfli) əhatə olunub (**Bax: Qeyd 2**);<br>- mövzu ilə bağlı fikirlər, çıxarılan nəticələr tamamilə məntiqli və inandırıcıdır;<br>- mövzu ilə bağlı müstəqil mühakimə ( 2 və daha artıq arqument) yürüdülüb;<br>- mövzu ilə bağlı fikrini əsaslandırmaq üçün sübutedici nümunələrdən (şəxsi təcrübəsindən) yerli-yerində istifadə edib.<br>- mövzu ilə bağlı həm lehinə, həm də əlehinə fikirlər (neytrallıq) verilib. |
| **1 bal** | - bəzi əsas məqamlar əhatə olunmaqla mövzu şərh olunub və ya mövzu qənaətbəxş səviyyədə əhatə olunsa da, mövzu ilə bağlı olmayan fikirlər var;<br>- mövzu ilə bağlı fikirlər irəli sürülsə də, çıxarılan nəticə qismən məntiqli və inandırıcıdır;<br>- mövzu ilə bağlı məhdud sayda arqument gətirilib;<br>- mövzu ilə bağlı fikirləri əsaslandırmaq üçün nümunələrə məhdud şəkildə istinad edilib, kənaraçıxmalar var və ya istinad zamanı məntiqi ardıcıllıq pozulmuşdur.<br>- mövzu ilə bağlı lehinə və ya əlehinə fikirlər (neytrallıq) qeyd olunmayıb. |
| **0 bal** | - mövzu müəyyən səviyyədə əhatə olunub;<br>- mövzudan nəzərəçarpacaq dərəcədə kənara çıxılıb (mövzudan çox yayınıb);<br>- mövzu ilə bağlı müstəqil mühakimə yurüdülmür, namizədin əsaslandırmaq istədiyi fikir aydın deyildir;<br>- çıxarılan nəticə əsaslandırılmayıb və ya nəticə yoxdur;<br>- fikri əsaslandırmaq üçün istifadə olunan fakt və hadisələr təhrif olunub və ya yoxdur.<br>- mövzu ilə bağlı lehinə və əlehinə fikirlər (neytrallıq) verilməyib.<br>- **Bax: Qeyd 3** |

| C – Məntiqi ardıcıllıq və qrammatik qaydalara əməl olunma |
|---|
| **1 bal** - müxtəlif birləşdirici vasitələrdən istifadə edir və fikirlər arasındakı məntiqi rabitə gözlənilir.<br>- fərqli strukturlu cümlələr qurur, ancaq mürəkkəb cümlələr quran zaman yol verilmiş (bəsit) səhvlərin (orfoqrafik, qrammatik, durğu işarəsi) ümumi sayı **1-5-**dir;<br>**Qeyd: Bənd üzrə şərtlər ödənilərsə, 1-2 səhv sayında güzəşt olunur.** |
| **0.5 bal** - əsasən sadə birləşdirici vasitələrdən istifadə edir.<br>- müxtəlif strukturlu cümlələr qurmağa cəhd etsə də, yazı işi əsasən sadə cümlələrdən ibarətdir.<br>- buraxılmış səhvlər bəzən məzmunun çatdırılmasına mane olur.<br>- yol verilmiş səhvlərin (orfoqrafik, qrammatik, durğu işarəsi) sayı **6-7**-dır.<br>**Qeyd: Bənd üzrə şərtlər ödənilərsə, 1-2 səhv sayında güzəşt olunur.** |
| **0 bal** - cümlə qurmaqda çətinlik çəkir, yazı söz yığınından ibarətdir.<br>- yol verilmiş səhvlərin **sayı 7-**dən çoxdur.<br>**Qeyd: Səhvlər anlamaya mane olmursa, sayı müvafiq bənd üzrə nəzərə alınmır.** |

| D – Söz ehtiyatının müxtəlifliyi və işlədilməsi |
|---|
| **1 bal** - mövzuya uyğun zəngin söz ehtiyatı vardır və həmişə yerində işlədir;<br>- cüzi leksik səhvlər (**1-5** səhv) məzmunun çatdırılmasına mane olmur;<br>- müxtəlif leksik vahidlərdən istifadə edir və leksik təkrara yol vermir (parafraz edir, sinonimlərini yazır, söz birləşmələrini istifadə edir).<br>**Qeyd: Bənd üzrə şərtlər ödənilərsə, 1-2 səhv sayında güzəşt olunur.** |
| **0.5 bal** - mövzuya uyğun kifayət qədər söz ehtiyatı vardır, ancaq bəzən yerində istifadə etmir;<br>- leksik səhvlər (**6-7** səhv) məzmunun çatdırılmasına mane olmur;<br>- məhdud sayda leksik vahidlərdən istifadə edir, bəzən leksik təkrara yol verir.<br>**Qeyd: Bənd üzrə şərtlər ödənilərsə, 1-2 səhv sayında güzəşt olunur.** |
| **0 bal** - mövzuya uyğun söz ehtiyatı bəsitdir/yoxdur, yersiz təkrarlara yol verir;<br>- leksik səhvlərin sayı **7-**dən çoxdur və onlar məzmunun çatdırılmasına mane olur.<br>**Qeyd: Səhvlər anlamaya mane olmursa, sayı müvafiq bənd üzrə nəzərə alınmır.** |